**Lecture 8**

## A. Aristotelin kosmoqoniya və kosmologiyası

Aristotel tam səma hadisələrini, hərəkəti 55 sfera ilə izah edirdi; Günəş, planetlər və tərpənməz ulduzlar büllur sferalar üzrə sabit sürətlə dövr edirlər. Ulduzların tərpənməz sferasından kənarda –"o tərəfdə" yerləşən xüsusi bir sfera vardır, ona ilk hərəkət verilib və bu, digər dövretmə hərəkətlərinin səbəbi, qaynağıdır. Hər sfera ardıcıl olaraq ondan kiçik olan, yəni mərkəzə-Yerə doğru baxdıqda ondan sonrakı sferanı hərəkətə gətirir. Aristotel Günəşdən istilik yayılmasını (Günəş od-alov deyil, efirdən ibarətdir) Günəşin Yer ətrafında dövr edərkən efirə təsir etməsi ilə izah edirdi. Aristotelə görə Bizim Qalaktika (Süd yolu) ulduzların  Yer ətrafında dövr etməsi nəticəsində buxarlanmanın alışması, alovlanmasıdır.

Aristotel kainatın hərəkətsiz mümkün olmadığını söyləyir və hərəkəti qeyri-maddi varlığın, düşüncənin, "ilk işəsalan"ın başladığını irəli sürürdü. Maddi kainatın hüdudlarından kənarda ilahi dünyanın varlığını qəbul edirdi. "Göy haqqında" əsərində o, yazırdı: "Göy yaradılmayıb və məhv ola bilməz...O əbədidir, başlanğıcı və sonu yoxdur".

Aristotel Yerin Kürə şəkilli olmasını təsdiqləyən faktları yada salır: Yer kürə şəkilli olmasa Ay tutulmasında onun kölgəsi əyrixətli olmazdı. O, şimala və ya cənuba səfər edərkən görünən ulduzların (üfüqün) vəziyyətinin xeyli dəyişdiyini, Yunanıstanda olduğundan fərqli ulduzlar göründüyünü həm yerin kürəşəkilli olması ilə, həmçinin bu kürənin səmavi ölçülərlə müqayisədə o qədər də böyük olmadığı ilə izah edirdi.

Kainatın elementləri dairəvi hərəkət edirlər (Ayüstündə), sonsuz dairə yoxdur, yəni Kainat sonludur. Üstəlik sonsuz olardısa, onun mərkəzi olmazdı; Kainatın isə mərkəzi var –Yer kürəsi. Mükəmməl olan Kainat sferik şəkildə olmalıdır, çünki sfera yeganə mükəmməl fiqurdur; üstəlik sfera fırlanarkən tutduğu yer dəyişmir. Ayın işıqlı və qaranlıq hissəsini ayıran sərhəd xətti Ayın kürə şəkilli olduğunu göstərir. Ulduzlar da kürəşəkilli olmalıdırlar, çünki onlar özbaşına deyil, təsadüfən deyil, təbii olaraq hərəkət edirlər (xüsusi hərəkət üzvləri yoxdur!) və onlar üçün kürə ən uyğun şəkildir/formadır.

Arisotelin sistemində Kallippin 34 sferasına əks istiqamətdə fırlanan daha 22 sfera əlavə edilmişdi; bunlar daxili sferaları neytrallaşdırmaq (Saturn və Yupiterdə üç-üç, Mars, Venera, Merkuri və Günəşdə dörd-dörd) və növbəti planetə ancaq günlük fırlanma hərəkətini ötürmək üçündür.Ay axırıncı səma

cismi olduğu üçün (tərpənməz ulduzlar sferasından yerı doğru baxanda) neytrallaşdırıcı sferalara ehtiyac qalmırdı.

Ulduzların tərpənməz olmasını Aristotel göy qübbəsinin gün ərzində yer ətrafında fırlanması zamanı ulduzların eyni sürətə malik olması ilə izah edirdi. Göyün Yerə bir qədər yaxın olan hissəsi isə tam mükəmməl deyil və tam mükəmməl olmayan səma cisimlərinin - Günəş, Ay və planetlərin məskənidir. Planetlərin fırlanması, eləcə də sağa doğru hərəkəti zamanı qəribə geriləmələrin, hərdən sola doğru hərəkətlərin müşahidə olunması bu səma cisimlərinin mükəmməl olmadığına işarədir. Qeyri-mükəmməl meteoritlər, kometlər ("odlu meteorlar") "Aydan aşağıdadır" (təbii ki, bu belə deyil-H.İ.)

Əgər yer daimi dəyişmələrin, doğum və ölümün məskənidirsə, ölümlü-olumlu dünyadırsa, göy əbədi və mükəmməl olanın məskənidir. Kainat sferalarının bir-birindən düz mütənasib (xətti) şəkildə aralı olması, yəni mərkəzdən məsafənin xətti artması kainata dayanıqlıq verir, kainat daxili sürtünməyə məruz qalsa da (və bu səbəblə sferalar qızsa da) "dağılmır". Aristoteldə əsas səma cisimləri yerə yaxınlığına görə aşağıdakı ardıcıllıqla düzülüb: Ay, Merkuri, Venera, Günəş, Mars, Yupiter, Saturn. Evdoks və digər riyaziyyatçı-astronomlar (Ptolomey də daxil olmaqla) kainatı öyrənmək üçün riyazi model qurmuşdular, Aristotel isə öz görüşlərini gerçək mexanizm kimi təqdim edirdi (məsələn, efir təbiətli şəffaf sferalar). Lakin Evdoksda olduğu kimi Aristotelin Kainatında da izahı olmayan suallar vardı: Venera və Mars`ın geriyə hərəkət zamanı başqa vaxtlarda olduğundan xeyli daha parlaq görünmələrinin səbəbi məlum deyildi.

Aristotel əbədi olan ilkin ali təkanverici qüvvə (Tanrı) ilə yanaşı digər sferaların hərəkəti ilə məşğul olan əbədi, amma "daha kiçik" ilahi qüvvənin varlığına da işarə vururdu. Orta əsrlərdə Aristotelin bu fikirlərini Foma Akvinski xristian teologiyasına uyğunlaşdırılmaq istiqamətində inkişaf etdirmişdi.

Meteorologiya və kimya üzrə əsərlər müəllifi idi. Aristotel dörd element və soyuq, isti, quru, yaş kimi xassələr vasitəsilə suyun dövranı, həmçinin atmosfer və okean arasında qarşılıqlı əlaqə, quru və dənizlərin ölçülərinin dəyişməsi kimi məsələlərə aid maraqlı fikirlər söyləmişdir. Lakin, Aristotelin bu əsəri əsasən özünü doğrultmayan mühakimə və nəticələrdən ibarətdir desək çox səhv etmərik. Aristotelin səhv nəzəriyyələri uzunömürlü oldu və onun böyük nüfuzuna görə elmin inkişafına müəyyən dərəcədə mane oldu. Heliosentrik sistemin təsdiqi üçün "Kopernik, Kepler və Qalileo

həm Aristotel`lə, həm Bibliya ilə mübarizə aparmalı oldular"(B. Russell, səh. 206).

## B. Aristotelin biologiyası

Aristotel biologiya üzrə araşdırmalarında fizika ilə müqayisədə daha təcrübi olmuş, dənizçilər, xüsusilə balıqçılar, həkimlər və əkinçilərin bilik və müşahidələrindən istifadə etmiş, özü də tələbələri ilə birlikdə botanika, zoologiya, anatomiya, fiziologiya və psixologiya sahələrində mühüm müşahidələr aparmış (məsələn, Lesbos adasında Feofrastla birlikdə), deyilənə görə öz bioloji kolleksiyası olmuşdur. Makedoniyalı Aleksandrın yürüşləri və bəzi digər səfərlər zamanı Aristotelin bitki və bağ kolleksiyasının zənginləşdirildiyi güman edilir.

Ən böyük uğurları (az olmayan ziddiyyətləri və səhvləri ilə yanaşı) bir sıra hallarda dərin müşahidələr aparmağa müvəffəq olduğu zoologiya üzrədir Biologiya üzrə baş əsəri 9 kitabdan ibarət olan "Heyvanların tarixi"dir. Heyvanlar aləminin təsnifatını vermiş, 500-dən artıq heyvan adı çəkmiş, bir çoxlarının ətraflı təsvirini vermişdir (özü yarma-kəsmələr etmişdir). Dəniz heyvanları, həmçinin quşlar barədə müşahidələri xüsusilə incə və uzunömürlü olmuşdur. Heyvanları "qanlı" (istiqanlı, qırmızıqanlı?) və "qansız" (soyuqqanlı?) kimi iki sinfə ayırmışdır. Qanlıları bala doğan dördayaqlılar (məməlilər), yumurta ilə çoxalan dordayaqlılar, dəniz məməliləri və quşlar altsiniflərinə ayırmışdır. Qansızları isə ilbizlər (mollusks), xərçəngəbənzərlər (crustacea), qınlılar-zirehlilər (testacea) və həşarətlər-cücülər altsiniflərinə bölmüşdür. O, delfinlərin (həmçinin balina və su donuzlarının) suda yaşamasına və balıqlara oxşamasına baxmayaraq, onların bir çox cəhətlərə görə balıqlara deyil, quruda yaşayan heyvanlara oxşadığını yazır. Delfin istiqanlıdır, onun ciyərləri var və o, hava ilə nəfəs alır. Delfin qidalanma cəhətdən də balıqdan fərqlidir. Suda yaşayan və qismən suda yaşayan heyvanları (timsah, qunduz) fərqləndirir, onları (və ümumiyyətlə canlıları, müqayisəli şəkildə) anatomik və həyat tərzi baxımından təsvir edirdi.

Aristotel canlıların əmələ gəlmə və inkişafı barədə fikirlər yürütmüş (cücənin inkişafını dəqiq təsvir edə bilmişdi), əmələ gəlmənin mütləq bir səbəb üzündən baş verdiyini və nəticədə hazırkı vəziyyəti aldığını deyirdi. O, doğum zamanı ürəyin vurmasını həyatın ilk işarəsi hesab etmişdi.Aristotelin metafizikasına görə mayalanmış yumurta və ya rüşeym potensial insandır, doğulub böyüməkdə olan insan (məsələn, kitab oxuyan) isə aktual/gerçək insandır. O, ibtidai rüşeymin canlıya çevrilməsini

ibtidaidən, mükəmməl olmayandan mükəmməlliyə keçid, yəni aşağı formadan yuxarıya keçid və ya təkamül kimi qiymətləndirirdi. Aristotel bir tərəfdən yeni insanın və heyvanın doğulmasında ata və ananın hər ikisinin mühüm və bənzər rol oynadığını, iki tərəfdən də "toxum"un iştirak etdiyini deyir, uşaqların öz valideynlərinə bənzəməsini də bununla izah edirdi (valideyndə olan çapıq həmin yerdə övladda da təkrar oluna bildiyini qeyd edirdi). Digər yandan isə atanın/erkəyin daha tam və "isti", ananın/dişinin isə tamamlanmamış/soyuq olduğunu iddia edirdi (?). İstilik mükəmməlliyə yaxınlıq demək idi. Aristotelə qədər hakim olan baxışa görə övlad erkəyin içindən hazıra yaxın vəziyyətdə bir toxum kimi gəlir, qadın sadəcə övladın dünyaya gəldiyi yer/məkan rolu oynayır. Aristotel burada qadının da *mühüm* olduğunu desə də, onu "eyni dərəcədə mühüm" hesab etmir. Ana yumurtası maddədir, ata ona daha yüksək statusu olan forma verir. Atanın toxumu qandan tam bişmiş şəkildə əmələ gəlir və ona forma/şəkil vermək olur, ananın sperma "toxum"u isə yarıbişmiş olur.

Qan damarların bağırsaqlardan sorduğu qidadır deyir və qanın azalmasını bu baxımdan qidalanmanın durması və ya zəif olması ilə əlaqələndirirdi. Aristotel`in irsiyyət sahəsində maraqlı fikirləri vardı.Atası zənci, anası yunan olan ailənin uşaqları hamısı ağ rəngli olmuş, nəvələr arasında isə zəncilər də doğulur; Aristotel zəncilik ünsürlərinin orta nəsildə, yəni övladlarda necə gizləndiyi məsələsini qoymuşdu.

Canlı orqanizmin orqanları birlikdə onun bədənini təşkil edir, forması isə həmin orqanları vahid üzvi varlıq kimi təşkil edən, bəslənmə, böyümə, çoxalma, hiss və hərəkəti müəyyən edən ruhdur. Böyümənin səbəbi istilik-hərarətdir ("heyvani istilik"dir, həyat verən, canlı saxlayan qüvvədir). Bu hərarətin qaynağı ürəkdir, qanın qaynaması damarların/nəbzin vurmasına səbəb olur. İnsanı heyvanlardan fərqləndirən ağıl və ruh da ürəkdədir. Ürəyin hərarəti ağciyərləri genişləndirir, yeni hava çıxır, qanla təmas edərək köhnəlir (qan onu qızdırır, o, qanı soyudur). Beyin qızmış qanı, daxili hərarəti soyudur (ifraz etdiyi seliklə), nizamlayır. Beyin soyuq, onurğa iliyi isə istidir. Bağırsaqlar ürəyin köməyilə qidanı bişirir.

Bitkilərdən fərqli olaraq heyvanlar hissetmə və hərəkət orqanlarına malikdirlər, insanlar isə əlavə olaraq rasional ruha, düşüncə qabiliyyətinə sahibdirlər. İnsan və ali (kamil) heyvanlar dişi maddəni (menstrual qanı) və erkək formanı-ruhu (toxum) verməklə yeni canlını meydana gətirirlər. İkinci sinif heyvanlar içəridə yetişdirilmiş yumurta ilə bala çıxarır, daha aşağı sinif olan qansızlar isə sürfə (grub, maggot) ilə çoxalırlar (sürfə sonra yumurtaya çevrilir). Qanlı heyvanların öz istiliklərini soyudan mexanizmə ehtiyacları

var. Nəfəs almada soyuma vəzifəsini havanı alan ağciyərlər, balıqlarda isə bu işi su görür. Aristotelin orqanlar sıralamasında ürək hiss və duyğuların yuvası olmaqla mərkəzi orqandır. Aristotel tək insanın deyil, heyvanların da ruhu olduğunu iddia edirdi.

Aristotel qulağın quruluşunu nisbətən yaxşı bilir, görməni Empedokles kimi obyektdən çıxan hissəciklərin gözə, gözün nəmliyinə toxunması ilə izah edirdi. Aristotel zooloji araşdırmaların mühüm olduğunu, buna az fikir verildiyini qeyd edirdi ("Heyvanların hissələri haqqında").

Hətta daha çox uğur qazandığı biologiyada Aristotelin səhvləri az deyil. Yuxarıda deyilənlərə əlavələr: bitkilərdə erkək-dişi olmur, ağlın əsas orqanı ürəkdir, beyin ürəyin qızmasının qarşısını almaq, onu soyutmaq üçündür; arteriya və vena arasındakı fərqi dərk edə bilməmişdi...O, qan damarları və onların növləri, əzələlər, qabırğalar (guya hər tərəfdə 8 qabırğa var) haqqında bir şey bilmirdi. Bioloji sistemində də, fəlsəfi sistemindəki kimi qadınlara aşağı yer verir, diş sayının qadınlarda kişilərdən az olduğunu iddia edirdi.

## C. Fəlsəfə və onun sahələri

Fəlsəfəni insanın özünü dərk etməsi, insanın həyatın mənası üzərində düşünməsi və bir şeylər anlaması, bilik və dəyərlər sistemi kimi anlayanlar da, onu xüsusi həyat tərzi ilə səciyyələndirənlər də olmuşdur. Əsil fəlsəfə ağlın hüdudlarını qavramaqdır (Nietzsche), "fəlsəfə qarın doyurmaz, amma ruhu təmin edər" (W. James).

Qautam bir hökmdar oğlu idi, amma xoşbəxtliyi zənginlikdə görmürdü. Zəngin həyatdan uzaqlaşıb ağrı-acını dəf etmək üçün düşünməyə, yol axtarmağa başladı. Həqiqəti dərk edəndə "Budda", yəni "oyanmış", "aydın olmuş" adını aldı. Həqiqət ifrata varmalar arasındakı "orta yol" imiş. Konfuçius insanın fəzilət sahibi olmasını, belə olduqda dövlətin daha yaxşı idarəediləcəyini irəli sürdü. Onun fəlsəfi idealı yaxşı, fəzilətli insan və yaxşı təşkil olunmuş cəmiyyət idi. Platona görə fəlsəfə "ölüm üçün bir hazırlıqdır" (bu dünya əsas/gerçək deyil).

Amma fəlsəfənin bir zehni fəaliyyət olduğu şübhə doğurmur. Düşünmə sənətidir fəlsəfə. Fəlsəfə "böyük" suallar və məsələlər üzərində sistemli, azad, tənqidi düşüncədir. Həyat nədir? Var olan nədir? Xoşbəxtlik nədir? Bilmək nədir? Düşüncə və bədən arasında nə əlaqə var?

Fəlsəfə ayrı-ayrı elmlərin məşğul olmadığı çox ümumi suallar üzərində çərçivəsiz düşünmədir. Fəlsəfə elmdir, ya sənət? Yaspers: Fəlsəfə bir hədəfə, bir nəticəyə çatmaq deyil, daima yolda olmaqdır!

"İnsan heyvanla Tanrı arasında gərilmiş bir ipdir"(Nietzsche). İnsan ağlı və iradəsi olan canlıdır, o nə heyvandır, nə də Tanrı. Alışqanlıqdan, ətalətdən, ənənədən azad düşüncə qabiliyyəti tələb edir fəlsəfə, əks halda heyrətə yer qalmaz və "böyük" suallar yaranmaz. Şübhə də mühümdür, "şübhədir hər həqiqətin anası" (H. Cavid). Şübhə və maraq!

İnsanın nə və kim olduğunu düşüncə tarixindən, o cümlədən fəlsəfədən bir qədər anlamaq mümkündür. Çox şeyi seçə bilməmişik - valideynlərimizi, vətənimizi, dilimizi, dinimizi, boy-buxunumuzu,... Əlimizdə olan, seçə biləcəyimiz şeylər arasında ən qiymətlisi özümüzü inkişaf etdirməkdir. Bilik qazanmaq,önyarğısız düşünmə qabiliyyətinə malik olmaq, xarakterimizi yaxşılaşdırmaq, özümüzü yetişdirmək mümkün deyilmi?

Fərdin azadlığı və cəmiyyət qarşısında məsuliyyət bir-birinə mane olmurmu? Demokratik mədəniyyətin formalaşmasında fəlsəfənin də payı var. Bilik/elm və fəlsəfə fərqli insanları bir-birinə yaxınlaşdırır, eyni yerə yığır. Bu fərqlilikləri görməklə, səbəbini anlamaqla xoşqılıqlı olmaq ehtimalı artır. Özünü dərk edən başqalarını qəbul etməyə çalışır, bu belədirmi? Gerçək, həqiqət fərqli düşüncələrdən doğur. Voltaire: "Söylədiklərinizin heç birində sizinlə eyni görüşdə deyiləm, ancaq onları söyləmə haqqınızı ölüncəyə qədər müdafiə edəcəm". Platonun olimpiadaya 3 növ insanın gəldiyini deyir: idmançılar-şöhrət sevənlər; satıcılar-pul və maddə sevənlər; ziyalılar-müdriklik sevənlər (öyrənmək, anlamaq, səbəbləri bilmək-nə pul, nə şöhrət).

Fəlsəfə bir dildir - anlayışların dili, dəyərlərin dili, ideyaların dili. Düşüncə ilə dil və danışıq arasında birbaşa əlaqə varmı? Biri o biri olmadan mövcud olub fəal ola bilərmi? Çox zaman mənfi cavab verirlər. Düşüncənin fəallığı onun sözlə ifadəsi deyilmi? Sözlərin ifadə etdikləri qavramlar düşüncənin daşıyıcıları deyillərmi?

Fəlsəfə təvazökarlıq sevir. Filosof mütləq həqiqətə sahib deyil, müdrik də deyil, bilmək istəyən, heyrət edə bilən, müdrikliyə can atandır. Filosof kimdir? Hər şeyi sağlam, amma şübhəçi, üsyankar ağlın süzgəcindən keçirən; analiz (anlayışları hissələri ilə qavramaq) və sintez edən (hissələrdən inşa edən) düşüncə, yəni

analitik (ayırıcı) və sintetik (qurucu) düşüncə sahibi; mütləq, tam və qəti həqiqətə iddia etməyən (elmdən fərqli olaraq); təcrübənin qulu olmayan;

Fəlsəfənin məşğul olduğu, əhatə etdiyi məsələlər 3 əsas hissəyə/başlığa ayrıla bilər: Bilik/bilgi, varlıq, dəyər!

**Bilgi fəlsəfəsi.Epistemologiya**/Bilik nəzəriyyəsi. Bilgi nədir? Onun doğru olub-olmamasını necə bilmək olar? Bilginin qaynaqları.. Subyektlə (bilmək istəyənlə) obyekt (bilinilməsi istənən) arasında münasibət. Biliyin imkanı və imkansızlığı, qaynağı və ölçüləri. Məntiq –zehnimiz düzgün şəkildə necə işləyir? Şübhəçi (skeptik), empirist (əsas olan təcrübədir. Tabula Rasa), rasionalist (bilik əldə etmək üçün sağlam düşüncə kifayətdir, təcrübəyə ehtiyac yoxdur), intuisionist, pozitivist, praqmatistlər,...

Məntiq-düşüncənin/zehnin prisipləri. Deduksiya, silloqizm, induksiya.
Düşüncənin, zehnin qramatikasıdır Məntiq.

**Elm fəlsəfəsi.** Elmi biliklərin özəllikləri. Elmi nəzəriyyələrin təbiəti. Elmin qanunları. Elmdə kumulyativlik.

**Varlıq fəlsəfəsi/Ontologiya.** Varolan nədir? Gerçəklik nədir? Varolanın təbiəti və növləri. Zehin/ağıl və bədən münasibəti? Determinizm və azad iradə. Şüur-materiya: dualizm (şüur materiyadan ayrı mövcuddur)-monizm. Kosmoqoniya. Zaman nədir? Materializm və idealizm.

Bunları **nəzəri fəlsəfə** adlandırmaq olar. **Metafizika**?! (Aristoteldə “ilk fəlsəfə”): Varlıq fəlsəfəsi+Kosmoqoniya (kainatın mənşəi) və ya nəzəri fəlsəfə (sinonim kimi). Universallar.

**Əxlaq fəlsəfəsi/Etika/Moral Philosophy.** Həyatın mənası? Xoşbəxtlik, azadlıq, məsuliyyət. Niyyət, ya nəticə? (olmalı olanlar! Olanları isə psixologiya öyrənir)

**Siyasət fəlsəfəsi.** Siyasi anlayışların təbiəti. İnkişafın əsası nədir – azadlıq, iqtisadiyyat, hakimiyyət əzmi, tanınma/şöhrət hissi, yaşamaq uğrunda mübarizə, yaradıcılıq ehtirası? Normativ yanaşma: dövlət, siyasət necə olsa yaxşıdır? Hakimiyyət kimlərin olmalıdır? Mövcud vəziyyəti, olanları isə siyasi elmlər öyrənir.

**Din fəlsəfəsi.** Tanrı!? Ağıl və inanc arasında münasibətlər. Dostoyevskiy: Tanrı yoxsa, hər şeyə izin var!?

**Sənət fəlsəfəsi/Estetika**. Gözəllik duyğusu. Zövq. Sənət və doğru. Sənət və əxlaq. Təqlid. Romantizm...

**Təhsil fəlsəfəsi. Tarix fəlsəfəsi. Dil fəlsəfəsi. Hüquq fəlsəfəsi...**

Fəlsəfə qədim zəka fəaliyyətidir, psixologiya/ruh fəlsəfəsi ondan ayrıldı. Sosiologiya və antropologiya nisbətən daha yeni fəaliyyət sahələridir.

## D. Aristotelin metafizikası

Aristotel öz metafizika sistemini əsasən ardıcılları tərəfindən "Metafizika" adlandırılmış əsərində qurmuşdur. Əsərin ilk cümləsi belədir: "All men by nature desire to know". Aristotel üç növ elmdən söhbət açır: nəzəri elmlər (görməyə, seyr etməyə, mühakimə yürütməyə əsaslanan, şeylərin təbiətini anlamağa çalışan; məsələn, fizika, riyaziyyat, metafizika/teologiya-gerçəkliyi və varlığı araşdıran "ilk fəlsəfə"), poetik və ya məhsuldar/yaradıcı elmlər (yaratmağa, meydana gətirməyə əsaslanan; məsələn, sənətlər, o cümlədən incəsənət, poeziya, musiqi) və əməli və ya praktik elmlər (icra etməyə, həyata keçirməyə əsaslanan; məsələn, yaxşılıq və ya pislik etmək, əxlaq, siyasət). Bunları bir düşüncə tərzi kimi də şərh etmək olar. Platon riyaziyyatı ən yüksək elm saydığı halda Aristotel riyazi obyektlərin müstəqil varlıqları yoxdur deyir və fizikanı riyaziyyatdan üstün tutur. Fiziki obyektin bütövləşmiş maddi və forma tərəfi, riyazi obyektin ancaq forma tərəfi var. O, riyazi obyektləri ağlın məhsulu deyil, hisslər aləmindən mücərrədləşdirmək yolu ilə alınmış varlıqlar kimi şərh edirdi. Aristotelə görə birinci yerdə metafizika, ikincidə fizika, üçüncüdə riyaziyyat durur.

Aristotel varlıq məsələsini araşdırarkən həm ümumiyyətlə varlığı (Ontologiya), həm də ən mükəmməl, ən tam varlığı, yəni Tanrını (Teologiya) başa düşür.Yunan fəlsəfəsi "dəyişməyən nədir?" sualına cavab aramış və müxtəlif cavablar təklif etmişdi (su, hava və s.). Herakleitos isə hər şeyin dəyişdiyini söyləmişdi. Aristotel varlığı çoxmənalı, çoxanlamlı bir şey kimi şərh etmiş, Platon`la müqayisədə varlığa daha geniş anlam vermiş, daha çevik, daha yumşaq yanaşma göstərmişdir. O, İdeyaları və ya Aristotelin öz terminine görə Formaları da, maddi olanı da varlıq kimi qəbul etmişdir. Bu yanaşma nə materializm, nə idealizmdir -bu dünya ilə tam əlaqədə olmaq və...materialist olmamaq nəzəriyyəsidir!!

Fərdi olan varlıqlar dəyişən (amma onlar maddi və müstəqil varlığa sahibdirlər), İdeyalar və ya Formalar isə dəyişməyən (və müstəqil varlığa sahib olmayan) varlıqlardır (Platonda varlıq bu ikincilərdir). Formalar universaliyanı təcəssüm edirlər, onlar növü göstərirlər, xüsusi olanı deyil. Eyni zamanda onlar öz-özlərinə görünmürlər, yalnız xüsusi vasitəsilə görünürlər. Xüsusi olanı Aristotel substansiya adlandırır ("Vasif" substansiya, "insan" isə universaliyadır). Yəni burada bir linqvistik hadisədən, xüsusi və ümumi isim və ya sifətlərdən söhbət gedir. Onu da deyək ki, Aristotel`in daxil etdiyi çoxsaylı terminlərin böyük hissəsi elmdə yaşadı! Məhz bu lingvistik baxımdan da Aristotelin "mahiyyət" anlayışına verdiyi əhəmiyyəti vurğulamaq mümkündür. Mahiyyət obyektə xas olan, onu müəyyən edən əsas keyfiyyətdir, bu keyfiyyətsiz həmin obyekt (əşya, şəxs) tanınmaz, yəni bu keyfiyyət dəyişsə obyekt həminki obyekt deyil. Maddiyyət əvəzinə funksionallıq (nə? necə? nə üçün?), yəni obyektin mahiyyəti (essence) önə çəkilir. Aristotel gözəl misal çəkir: baltanın ruhu olsa, o ruh kəsməkdən ibarət olardı.

Aristotel Platondan fərqli olaraq ümumi və ya mücərrəd olanın (məsələn, insan, at) deyil, xüsusi, konkret və ya fərdi olanın (Vasif, Altay, John; Qırat, Bozat) müstəqil varlıq olduğunu deyir. B. Russell`ə görə bəzən elə təsəvvür yaranır ki, Aristotel "yeni lüğət vasitəsilə Platonizmi izah edir" (səh. 165). B. Russell Aristotel metafizikasının qeyri-müəyyənliklərindən, birqiymətli anlaşılmadığından, neqativlərindən danışır. Biz pozitiv düşüncə ilə Aristotel metafizikasının əsaslarını anlamağa çalışırıq.

Aristotel aşağıdakı dörd növ dəyişmənin olduğunu deyir: 1) məkanda yerdəyişmə, 2) keyfiyyət dəyişməsi (xəstələnmə kimi), 3) böyümə və ya kiçilmə, 4) doğulma və yoxolma. O, dəyişən şeyə maddə, maddədə baş verən, bir-birini əvəz edən keyfiyyətlərə isə forma deyir. Forma (keyfiyyət) ancaq maddə ilə birlikdə vardır, müstəqil olaraq deyil. Maddəsi olmayan tək varlıq Tanrıdır. Tanrı saf formadır, heç bir maddə qarışığı yoxdur. Tanrının təbiəti düşüncədən və ya əqli fəaliyyətdən ibarətdir. "İlahi düşüncənin düşündüyü şey onun özü olmalıdır,...onun düşüncəsi düşüncənin düşüncəsidir" (1074b). Yəni Tanrı düşünəndir, düşünüləndir və düşüncədir, bu səbəblə də ən yüksək, ən mükəmməl həyatdır, yəni xoşbəxtlikdir. Tanrı nə kainatı, nə də insanı yaratmamışdır, bir növ kimi insanlar da əzəli və əbədi varlıqlardır. Aristotelin dünyanı və insanı yaratmayan, onlarla maraqlanmayan Tanrısı böyük dinlərin Tanrısından köklü surətdə fərqlidir.

Maddə qeyri-müəyyəndir, onu müəyyən edən, ona keyfiyyət verən formadır. Bu baxımdan elmin mövzusu maddə deyil, formadır. Maddə

potensial, onun aktualı isə formadır. Ay-altı dünyada dörd təməl elementlərin qarışmasından minerallar və canlıların ən bəsit hissəsi olan toxumalar əmələ gəlir.  Toxumalarda orqanlar, orqanlardan orqanizmlər əmələ gəlir. Heyvanlar orqanizmlərdirlər. Ən yüksək dərəcədə təşəkkül tapmış heyvan və ya varlıq isə insandır. İnsanın maddəsi onun bədəni, forması isə düşünən varlıq olan ruhudur. Aristotel növlər arasında keçişin mümkünlüyünü qəbul etmir. Növlər sabitdir. Aşağı növdən olan varlıqlar yuxarı növdən olan varlıqların maddəsi ola bilir. Aristotel dəyişmələri, xüsusilə üzvi aləmdə, başqa bir cəhətdən də təhlil edir. A adlı şeyin dəyişib B adlı başqa bir şey olması necə baş verir? Məsələn bir toxum necə ağaca çevrilir? Görünür ki, A hələ A ikən (bir fakt kimi) həm də potensial olaraq B-dir (yəni B-yə çevrilmək imkanı var). Toxum var olduğu anda, bir fakt kimi toxumdur, ancaq gizli bir güc kimi, daxili bir qüvvə və ya potensial olaraq həm də ağacdır. Eynilə bir uşaq çox ehtimal ki (sağ qalsa), böyüyüb yetkin bir adam olacaq. Potensial qüvvə sanki ağılda, zehindədir, baxılan zamanda faktik olaraq yoxdur, görünmür. Lakin bəlli şərtlər daxilində toxumun ağaca çevrilə bilməsi (hətta mütləq belə olacağı) məlumdur. Tanrıda maddə yoxdur, potensial yoxdur, o, tam aktualdır.

## E. Aristotelin məntiqi

Aristotel dövründə yunancada məntiq (loqikhe) sözü yoxdu və o, “analitik” kəlməsindən istifadə etmişdi (logik sözü isə dialektika sözünə yaxın məna daşıyırdı). Məntiq üzrə əsərləri küllisinə “Orqanon” (alət, vasitə) adını onun ardıcılları vermişdi. Aristotel məntiqi zəka fəaliyyətinə giriş kimi anlayır, onu elm deyil, sənət, üsul sayırdı. İki təklifdən üçüncünün bir nəticə olaraq alınması (doğru olması) deduksiyadır; məsələn, “bütün insanlar ölümlüdür”, “Sokrates insandır”, deməli “Sokrates ölümlüdür”. Aristotel anlayışları “kateqoriyalar” adlandırır (yer, zaman, keyfiyyət, kəmiyyət kimi). Onlar bir-birindən asılı olmayan, biri digərinə keçməyən varlıq tipləridir. Anlayışlar arasında münasibəti, onlar arasındakı əlaqəni bildirən təkliflər məntiqin digər təməl hissəsidir. Aristotel əsasən iki fikirdən üçüncünün bir nəticə olaraq alınması tipli məntiqi silloqizmi araşdırır.

Aristotel “Sokrates”i kiçik, “insan”ı orta və “ölümlü”nü böyük termin/qavram sayır (xüsusidən ümumiyə); çoxluqlar mənada Sokrates insanlar çoxluğuna, insan ölümlülər çoxluğuna daxildir. B.Russell Aristotelin “bütün yunanlar insandır” kimi ilkin şərtin yunanların varlığından asılı olduğunu, bunu zəif nöqtə olduğunu qeyd edir; eynilə “bütün insanlar ölümlüdür” kimi ilkin şərtin induksiyaya əsaslandığını, ancaq təcrübədən irəli gəldiyini, bu ilkin şərtin metafizik səhv olduğunu

qeyd edir; hələ ki, sağ yaşayan insanlar var bu ilkin şərt formal məntiq baxımından yəqin deyil, ancaq ehtimaldır.

Deduksiya elmin üsuludur, elm səbəbdən nəticə almaqdır. Lakin Aristotel elmdə deduksiyanın yetərli olmadığını, müşahidə və sınaqlar aparılması və onlardan nəticə çıxarılması, yəni induksiyanın zəruriliyini deyirdi. Ümumidən xüsusiyə, xüsusidən ümumiyə - hər ikisi vacibdir. Birincisi ağlın qüdrətini, şübhəsizliyi göstərirkən, ikinci daha anlaşılan və daha geniş yayılmış olandır. Lakin müşahidə və sınaqların tam əhatəli ola bilməməsi problemi də mövcuddur.

Aristotel elmdə səbəblərdən bəhs edərkən ən yaxın səbəblərin mühüm olduğunu deyir; məsələn, insandan bəhs edərkən vacib olan onun heyvan olması və ya daha ümumi desək, dörd təməl maddədən ibarət olması deyil, düşünən varlıq olmasıdır. O, doğruluğu tam məlum olmayan, amma ağlabatan  təkliflərin də deduksiya yolu ilə araşdırılması və ağlabatan nəticələrin əldə edilə bilməsinə etiraz etmir. Aristotel sofistik mühakimələrin, yanıltmacların da təbiətini təhlil etmiş, ümumiyyətlə, dil fəlsəfəsinə də öz töhfəsini vermişdi.

Aristotel məntiqin əsaslarını yazan, məntiqi sistemləşdirən ilk şəxsdir, özü də bunu qeyd edir. O, baxılan obyektlərin təbiətindən asılı olmayan sabit qaydaları müəyyən etmiş, onların vasitəsinə silloqizmin müxtəlif şəkillərini təhlil etmişdir. Neoplatonçuluqda Aristotelin məntiqini əsasən Platon fəlsəfəsinə mütləq giriş olaraq daxil edir, qiymətləndirirdilər. “17-ci əsrə kimi Aristotel məntiq üzrə nüfuz sahibi idi” (Nicolas Burbaki. Eléments d`histoire des mathématiques, Hermann. Rusca: səh. 14). Kant Aristotel məntiqindən sonra məntiqdə kəşf etməyə çox şey qalmadığını düşünürdü (“Saf Ağlın Tənqidi”).

## Aristotel ruh haqqında

Aristotel “Ruh haqqında” əsərində Ruhun təbiətini araşdırmışdır. Yaşayan təbii cisim maddəyə və formaya malikdir, onların sintezidir, ruh onun formasıdır, zehni (passiv) fəaliyyətidir, ona xas olan fəaliyyətdir, onun ilk fəaliyyətidir, onun təbiətidir. Yatan adamın ruhu tam fəal deyilsə də, o var, zamanında (oyananda) fəallaşa bilir. Bədən ruhun maddəsidir, qüvvəsidir. “Əgər göz bir heyvan olsa, görmə onun ruhu olardı, balta bir canlı olsaydı, kəsmə onun ruhu olardı”. Deməli, ruh bədəndən ayrılmazdır. Platondan fərqli olaraq Aristotelin ruh nəzəriyyəsində bədən lazımsız və ya zindan deyil.

Bitkinin ruhunu “bəsləyici” (törəmə, yeni nəsil əmələ gətirmə də buna daxildir), heyvanın ruhunu “duyğulu”, insanın ruhunu “ağıllı” ruh kimi səciyyələndirmək olar. Ağıllı ruh həm də duyğulu və bəsləyicidir, duyğulu ruh həm də bəsləyicidir. Duyma, onun üstündə xəyal gücü (təxəyyül), onun da üstündə düşünmə yer alır; onlar bir-birindən təcrid olunmayıb, əksinə bir-birinə təsir edir, bir-birinin içinə girir. Bilmək, bilik əldə etmək duyğudan təxəyyülə, təxəyyüldən təcrübəyə, təcrübədən mühakiməyə, və nəhayət qavramağa uzanan bir yolda əldə edilir.

Aristotelə görə ruh bədənlə birlikdədir, bədəndən ayrı mövcud deyil, ruh köç etmir (Pifaqorçuların tam əksi!) və ruh bədənlə eyni zamanda ölür. Ruh bədənin/maddənin formasıdır, aktuallığıdır, bədənin mahiyyətidir. Ağıl/zəka ruhdan yüksəkdir, ağlın təbiəti mürəkkəbdir, o, sanki başqa növ (yüksək!?) ruhdur və ayrı yaşaya bilir, əbədi və ölümsüzdür; riyaziyyatı və fəlsəfəni anlayan, qavrayan odur (?!) (Ruh haqqında, 407-415). Düşünən və ya ağıllı ruh nədir? Biliyi yaradan, meydana çıxaran Fəal Ağıl`dır, passiv ağıl deyil. Fəal ağıl işıq kimidir, onun sayəsində passiv ağıl fəallaşır. Aristotel “yalnız fəal ağıl ölümsüz və əzəli-əbədidir” deyir. Fəal Ağlın nə olduğu haqqında böyük mübahisələr olub (Tanrı deyilsə, ali bir mövqedədir...). Aristotel praktik ağlın arzudan, nəzəri ağlın isə düşüncədən doğduğunu deyir. Xəyal gücünü də, düşüncəni də fəallaşdıran arzu olsa da, bir şeyin yaxşı və ya pis olması düşüncənin uyğun olaraq təsdiq və ya inkar etməsi ilə bağlıdır. Bir şeyin həyata keçməsi üçün arzu və düşüncə birləşməlidir. Ağıl/Ağıllı ruh insanın özündən yüksəkdə durur, onda bir ilahilik var, onun idarəsində/iradəsində olan həyatda bir ilahilik var.